# Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır

## İyirmi səkkiz illik Vətən həsrəti sona çatdı



Azərbaycan Böyük qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Buna Ali Baş Komandan, məğlubedilməz Sərkərdə İlham Əliyev nail oldu.

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Bütün bunlar barədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində də geniş bəhs edilib. Dövlətimizin başçısı Ermənistanın məğlubiyyətinin etiraf etdiyi günün ölkəmiz üçün tarixi bir gün olduğunu, bununla da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu vurğulayıb: “Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar”.

Azərbaycan Prezidenti daha sonra xalqımızı sözügedən bəyanatın mətni ilə tanış edərək, sənəddə bu il noyabrın 10-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasının elan olunduğunu, Azərbaycan və Ermənistan respublikalarının hazırda tutduqları mövqelərdə qalacaqlarının vurğulandığını bildirib.

Xatırladaq ki, haqqında bəhs olunan birgə bəyanatda Ermənistan öz üzərinə qarşıdakı 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı öhdəliyini götürür. Beləliklə, baza prinsiplərinin hər iki mərhələsi yerinə yetirilir. Bu isə haqqın qələbəsi, ədalətin təntənəsidir.

Yeri gəlmişkən, bu proses çərçivəsində önəmli məqamlardan biri də Naxçıvanın blokadadan çıxarılması ilə bağlıdır. Belə ki, Rusiya tərəfi Ermənistan ərazisindən Naxçıvana dəhlizin açılmasını öz üzərinə götürür.

Bütün bunlar, əlbəttə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun yüksək peşəkarlıqla, əzmlə, qətiyyətlə apardığı müharibənin– işğaldan azadetmə əməliyyatının məntiqi nəticəsidir.

Bu məqamda qeyd etmək istərdik ki, Azərbaycan tarixinə bu parlaq səhifələri yazmaq heç də asan olmadı. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq məqsədilə Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi. Lakin bütün bu manevrlərə baxmayaraq, Prezident, Ali Baş Komandan İlham Əliyev yüksək diplomatik peşəkarlıq, əzmkarlıq, qəti siyasi iradə nümayiş etdirərək, bütün çətinliklərə müdrikliklə sinə gərərək onların hamısını aradan qaldırdı.

Dövlətimizin başçısı çıxışında bəyanatın tarixi əhəmiyyəti barədə də ətraflı məlumat verib: “Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəklində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanatı videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq…”.

Ali Baş Komandan İlham Əliyev, həmçinin bildirib ki, bu bəyanat Azərbaycanın şanlı qələbəsidir: “Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur”.

Dövlətimizin başçısı müraciətində sözügedən bəyanatla uzun illər davam edən işğala son qoyulduğu, bununla belə də yağı tapdağında qalan digər rayonlarımızın – Ağdam, Laçın və Kəlbəcərin bu ayın sonuna qədər qan tökülmədən qaytarılmasını şərtləndirildiyini diqqətə çatdırıb. Həmçinin məcburi köçkünlərin bir çoxunun uzun illər ərzində münaqişənin həllini tapmadığından ümidini itirdiyini xatırladıb. Eyni zamanda, həmin insanlara daim diqqət və qayğı göstərilməsinə, yüksək sosial şərait yaradılmasına baxmayaraq, onların doğma torpaqlara qayıtmaq arzusunda olduqlarını bildirib.




***Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.***

Azərbaycan Prezidenti məcburi köçkünlərlə görüşlərində onlarda güclü iradə, yenilməzlik, dövlətə sədaqət gördüyünü, eyni zamanda, gözlərində nisgil, həsrət nəzərə çarpdığını da qeyd edərək, artıq buna son qoyulduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra deyib: “Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq”.

Azərbaycan Prezidenti İlham Əliyevin xatırlatdığı kimi, Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı tarixi ərazimizdə– Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı rayonlarda xalqımıza məxsus daşınmaz tarix və mədəniyyət abidələri dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Düşmən tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ortaya qoyublar. İşğal altındakı ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönələn təhdid kimi dəyərləndirilməlidir.

İşğaldan azad olunan ərazilərdə yerləşən abidələrin bir çoxu, o cümlədən Qubadlı rayonunun Məmər kəndindəki XVIII əsrə aid məscid də acınacaqlı vəziyyətdədir. Bədnam ermənilər bu dini-mədəniyyət abidəsindən də Zəngilan rayonundakı məscid kimi donuz tövləsi olaraq istifadə ediblər. Bu hal Ermənistan Respublikasının digər dinlərə münasibətini və həqiqi simasını əks etdirir. Eyni zamanda, bu vandalizm faktı ümumilikdə, dünyanın mədəni irsinə barbar münasibət olduğundan beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya birliyi tərəfindən kəskin qınaq obyektinə çevrilməli, hüquqi qiymətini almalıdır.

Dövlətimizin başçısı xalqa müraciətində Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqlarını vurğulayıb, eyni zamanda, bütün yaralı hərbçilərimizə şəfa diləyib, onların tezliklə sağalıb normal həyata dönmələri, sağalmaları üçün bütün tədbirlərdən istifadə ediləcəyini bildirib. Azərbaycan Prezidenti, həmçinin videokonfrans formatında imzalama mərasimindəki çıxışında həm Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, həm də Rusiya Prezidenti Vladimir Putinin səylərini yüksək qiymətləndirdiyini, onların ötən 44-45 gün ərzində məsələnin sülh yolu ilə həll olunmasına böyük səylər göstərdiklərini diqqətə çatdırıb.

**V.BAYRAMOV,**
***“Xalq qəzeti”***